


# Ağla qərənfil, ağla

Qurdun azğın dişləri,
Alt-üst etdi işləri,
Dara çəkilmişləri,
Ağla qərənfil, ağla.

Çiliklәndi eynəyim,
Yetər artıq göynəyim,
Başdaşları köynəyim
Ağla qərənfil, ağla.

Bu ağrı içimdədi,
Hamı bir biçimdədi.
Vətən yas içindədi
Ağla qərənfil, ağla.

Qan etdilər səhəri,
İçirdilər zəhəri.
Bas bağrına şəhəri
Ağla qərənfil, ağla.

Zirvələr sar saxladı,
Dünya da sarsaqladı.
Yaramız qaysaqladı
Ağla qərənfil, ağla.

Tank gəlir özgə səsdə,
Quş neynəsin qəfəsdə
İzdiham dəstə-dəstə
Ağla qərənfil, ağla.

Gəl nə sındır, nə xışla.
Məzarları naxışla
Hamını bir baxışla
Ağla qərənfil, ağla.

Şeytan öz qabındadı,
Hiylə niqabındadı
Getdi bu qabın dadı
Ağla qərənfil, ağla.

Zülmətdə xan gecəni
Gözləri qan gecəni.
Bu qudurğan gecəni
Ağla qərənfil, ağla.

Cücərt məni, ək məni,
Oyatmaz tütək məni
Diri-diri tək məni
Ağla qərənfil, ağla.

Heç nə yoxdu havayı,
Ucuz sanma bu vayı.
Unutma haqqı-sayı
Ağla qərənfil, ağla.

Qabil hikkələnibdi,
Ruhu güllələnibi.
Qana qan bələnibdi
Ağla qərənfil, ağla.

Zirvədə səkmək olmur,
Yenidən əkmək olmur
Bu dərdi çəkmək olmur
Ağla qərənfil, ağla.

Biz verdik ixtiyarı,
Qəm bürüdü diyarı
Ağlatma Bəxtiyarı
Ağla qərənfil, ağla.

Dərdimiz təməllidi,
Bu ki, bizə bəllidi
Ağlamaq təsəllidi
Ağla qərənfil, ağla.

Məmməd Araz bilincə,
Danış incə, din incə
Xəlil Rza gəlincə
Ağla qərənfil, ağla.

Aralılar pətəklədi,
Dərdimiz çiçəklədi
Ölüm bizi təklədi
Ağla qərənfil, ağla.

İsmayıl Şıxlı gəlib,
Qəlbi işıqlı gəlib.
Toylu, aşıqlı gəlib
Ağla qərənfil, ağla.

Nə qədər gördük kötək
Nə əl qaldı, nə ətək.
Dərdimiz pətək-pətək
Ağla qərənfil, ağla.

Burda sözü fel desin,
Araz desin, Nil desin.
Anar özü dil desin
Ağla qərənfil, ağla.

Hər birisi əriydi,
Düşündürən sər idi.
Xalqın öncülləriydi
Ağla qərənfil, ağla.

Haqqı xocamız desin,
Dağdan ucamız desin.
Fikrət Qocamız desin
Ağla qərənfil, ağla.

Qoy məhv olsun yağı de,
Çəkdi bizə dağı de.
Bayatı de, ağı de
Ağla qərənfil, ağla.

Məlumdu azarları,
Pis deyil bazarları.
Birinci yazarları
Ağla qərənfil, ağla.

Su dəhnədən soğulur
Kimsə sussuz boğulur.
Günəş hər gün doğulur
Ağla qərənfil, ağla.

Davud nəfəsindəsən,
Zilində, pəsindəsən.
Alimin səsindəsən
Ağla qərənfil, ağla.

Acı külək hey əsir,
Can almağa tələsir.
Ruhumuz qaldı əsir
Ağla qərənfil, ağla.

Bulud kimi dolan var
Rəngi-ruhu solan var.
Bu qırğında olan var
Ağla qərənfil, ağla.

Güllələr səpələndi
Qan köynəyə bələndi.
Varlığım silkələndi
Ağla qərənfil, ağla.

Boşa çıxdı dərkimiz,
Yondu bizi kərkimiz.
Sənə gəlir ərkimiz
Ağla qərənfil, ağla.

Zəmidə sünbülüm yox,
Həşəm oldu gülüm yox.
Bu zülüm tək zülüm yox
Ağla qərənfil, ağla.

Rəbbim saldı azarı
Bizdən düşdü güzarı.
Yoxdu behi bazarı
Ağla qərənfil, ağla.

Can verir dərdə cərim,
Bir də çətin becərim.
Yas tutub Kəlbəcərim
Ağla qərənfil, ağla.

Getmə zülmün bəhsinə,
Qulaq vermə səsinə
Hər kəsi qibləsinə
Ağla qərənfil, ağla.

Qan köynəyə bələndi,
Dərdimiz zirvələndi.
Qəbirlər cərgələndi
Ağla qərənfil, ağla.

Doğranan meşəmizdi
Dərdimiz nəşəmizdir.
Ağlamaq peşəmizdir
Ağla qərənfil, ağla.

Bu bizlərə şərdimi,
Yazılmış əsərdimi?
Bir evdə üm mərdimi
Ağla qərənfil, ağla.

Gedən varsa əyləmə
Dərdi yada söyləmə.
Çox da kürlük eyləmə
Ağla qərənfil, ağla.

Bu səngimiş şamları,
Qaralmış axşamları
Gül qoxan əndamları
Ağla qərənfil, ağla.

Məlhəm ol əlacıma,
Sən də bir yan acıma.
Şəhid gedən bacıma
Ağla qərənfil, ağla.

Mən nə deyim bu bürcə,
Özün de bircə-bircə.
Yaşamadıq ömürcə
Ağla qərənfil, ağla.

Kişi doğulmuşları,
Əbədi susmuşları.
Şəhid qaranquşları
Ağla qərənfil, ağla.

Bu düşməni tanı sən
Əldən vermə anı sən.
Can verməyən canı sən
Ağla qərənfil, ağla.

Tər çiçəklər tər getdi
Ev dağıldı dər getdi.
Gəlin qaldı, ər getdi
Ağla qərənfil, ağla.

Səp yaramın duzunu,
Ərit qəlbin buzunu.
Qurd apardı quzunu
Ağla qərənfil, ağla.

Bu zərif çiçəkləri,
Var olan gerçəkləri.
Gözəli göyçəkləri
Ağla qərənfil, ağla.

Pozdular tam işləri,
Sındırdılar dişləri
Ağ kəfən geymişləri
Ağla qərənfil, ağla.

Kaş dərs olsun bu bizə,
Göz yummayaq gündüzə.
Qan artıq çıxıb dizə
Ağla qərənfil, ağla.

Kim yaralı, kim xəstə.
Şəhidlər dəstə-dəstə
Ölənləri ahəstə
Ağla qərənfil, ağla.

Bu qədər talanları.
Şər adlı yalanları
Dərdi lap kalanları
Ağla qərənfil, ağla.

Dözənmirik zillətə,
Hıçqırığa, illətə
Sən də qoşul millətə
Ağla qərənfil, ağla.

Tükəndi getdi dözüm,
Söndü ocağım közüm
Bir şəhid də mən özüm.
Ağla qərənfil, ağla.

*23 yanvar 1990-cı il*
***Eldar Həsənli***